# AZƏRBAYCAN İQTİSADİYYATINDA İNVESTİSİYA FƏALİYYƏTİNİN TƏHLİLİ VƏ XARİCİ İNVESTİSİYA CƏLBİ PROBLEMLƏRİ

**Cavanşir Ataş oğlu BURHANZADƏ**
*AR ETN İqtisadiyyat İnstitutunun "Post-konflikt Ərazilərin Bərpası"*
*Elmi Mərkəzinin kiçik elmi işçisi,*
*E-mail: j.burhanzada@economy.science.az*

***Received:*** *23 April 2026* ***Revised:*** *25 Mai 2026* ***Accepted:*** *25 June 2026*

**UOT:** 338.47 **JEL:** L90 **DOİ:**https://doi.org/10.32010/GSOV8060

**Xülasə:** Məqalənin əsas məqsədi Azərbaycan iqtisadiyyatında investisiya fəaliyyətinin mövcud vəziyyətinin və dinamik inkişaf meyllərinin kompleks şəkildə təhlil edilməsi, eyni zamanda xarici investisiyaların cəlb edilməsi sahəsində mövcud olan əsas problemlərin müəyyənləşdirilməsidir. Tədqiqat çərçivəsində müqayisəli təhlil, statistik analiz, sistemli yanaşma və ümumiləşdirmə metodlarından istifadə edilmişdir. Təhlil və qiymətləndirilmələr əsasən Dövlət Statistika Komitəsinin illik hesablatlarının məlumatları əsasında aparılmışdır. Aparılan təhlil göstərir ki, ölkədə investisiya axınları uzun müddət əsasən enerji sektorunda cəmləşmişdir. Qeyri-neft sektoruna yönələn investisiyaların payı son illərdə artım dinamikası nümayiş etdirsə də, hələ də iqtisadiyyatın şaxələndirilməsi baxımından yetərli səviyyəyə çatmamışdır. Bununla yanaşı, institusional mühitin keyfiyyəti, hüquqi çərçivənin effektivliyi, infrastruktur təminatı və regionlararası inkişaf fərqləri xarici investorların qərarlarına təsir edən əsas amillər kimi çıxış edir. Tədqiqatın nəticələri əsasında müəyyən edilmişdir ki, investisiya mühitinin təkmilləşdirilməsi üçün institusional islahatların dərinləşdirilməsi, maliyyə bazarlarının inkişaf etdirilməsi, qeyri-neft sektorunda məqsədli təşviq mexanizmlərinin genişləndirilməsi zəruridir. Məqalənin tətbiqi əhəmiyyəti ondan ibarətdir ki, irəli sürülən təklif və tövsiyələr dövlət investisiya siyasətinin formalaşdırılması və xarici investisiyaların cəlb edilməsi mexanizmlərinin optimallaşdırılması baxımından istifadə oluna bilər. Məqalənin elmi yeniliyi investisiya fəaliyyətinin struktur təhlilinin sistemli şəkildə aparılması, Azərbaycan üçün uyğunlaşdırılmış makroiqtisadi təşviq alətlərinin əsaslandırılması ilə bağlıdır. Bununla bərabər, tədqiqat mövcud elmi ədəbiyyata töhfə verərək bu sahədə gələcək araşdırmalar üçün nəzəri-metodoloji baza rolunu oynaya bilər.

**Açar sözlər:** investisiya fəaliyyəti, xarici investisiyalar, iqtisadi inkişaf, qeyri-neft sektoru, emal sənayesi, institusional mühit, makroiqtisadi təşviqlər.

## Giriş

Giriş. Müasir qlobal iqtisadi sistemdə investisiyalar iqtisadi inkişafın əsas hərəkətverici qüvvələrindən biri kimi çıxış edir. İnvestisiya qoyuluşları həm makroiqtisadi sabitliyin təmin olunmasında, həm də uzunmüddətli iqtisadi artımın formalaşmasında fundamental rol oynayır. İqtisadi nəzəriyyələrdə investisiyalar kapital yığımı, istehsal güclərinin genişlənməsi və məhsuldarlığın artımı ilə birbaşa əlaqələndirilir. Merkantilist yanaşmaya görə sərvətin əsas mənbəyi xarici ticarət və qızıl-gümüş ehtiyatlarının toplanması hesab edildiyindən investisiyalar daha çox ixrac yönümlü fəaliyyətlərin genişləndirilməsinə xidmət etməli olduğu fikri ön planda idi. Fiziokratlar isə sərvətin yeganə mənbəyi kimi torpağı və kənd təsərrüfatını qəbul edərək investisiyaların əsasən aqrar sahəyə yönəldilməsinin zəruriliyini irəli sürürdülər. Klassik iqtisadi məktəbin nümayəndələri, Adam Smith və David Ricardo, investisiyaları kapital yığımının əsas elementi kimi qiymətləndirərək onun istehsalın genişlənməsi, əmək bölgüsünün dərinləşməsi və iqtisadi artımın təmin olunmasında həlledici rol oynadığını əsaslandırmışlar [1, s.489]. Dünya Bankı və BMT-nin Ticarət və İnkişaf üzrə Konfransı (UNCTAD) kimi nüfuzlu

beynəlxalq təşkilatların hesabatlarında vurğulanır ki, xarici investisiyalar yalnız maliyyə resurslarının cəlbi ilə məhdudlaşmır, eyni zamanda qabaqcıl texnologiyaların transferi, innovasiya fəaliyyətinin təşviqi, yeni idarəetmə modellərinin tətbiqi və qlobal dəyər zəncirlərinə inteqrasiyanın gücləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir [2; 3]. Bu baxımdan, investisiyalar iqtisadiyyatın struktur transformasiyasını sürətləndirən əsas alətlərdən biri kimi çıxış edir. İnkişaf etməkdə olan ölkələr üçün xarici investisiyaların cəlbi xüsusilə strateji əhəmiyyət daşıyır. Belə ki, daxili maliyyə resurslarının məhdud olduğu şəraitdə xarici investisiyalar iqtisadi artımın maliyyələşdirilməsində alternativ və effektiv mənbə rolunu oynayır. Eyni zamanda xarici investorların fəaliyyəti nəticəsində yerli müəssisələrin rəqabət qabiliyyəti artır, əmək bazarında keyfiyyət dəyişiklikləri baş verir və ixrac potensialı genişlənir. Tədqiqatlar göstərir ki, inovativ sahələrə yönəldilən xarici investisiyaların həcmi ilə ÜDM artımı arasında müsbət korrelyasiya mövcuddur və bu əlaqə xüsusilə struktur islahatları həyata keçirən ölkələrdə daha güclü müşahidə olunur [4, s.65]. Azərbaycan iqtisadiyyatı son onilliklər ərzində əsasən neft-qaz sektoruna əsaslanan sürətli inkişaf mərhələsi keçmiş və bu inkişafın əsasını iri həcmli xarici investisiyalar təşkil etmişdir. “Əsrin müqaviləsi” kimi enerji layihələri çərçivəsində ölkəyə böyük həcmdə kapital axını təmin olunmuş, bu isə iqtisadi artımın yüksək templə reallaşmasına şərait yaratmışdır [5]. Qlobal enerji bazarlarında qiymət dəyişkənliyi və resurs asılılığının yaratdığı risklər iqtisadiyyatın şaxələndirilməsini zəruri edir. Bu baxımdan, qeyri-neft sektoruna investisiyaların artırılması və iqtisadi strukturun diversifikasiyası dövlət siyasətinin əsas prioritet istiqamətlərindən birinə çevrilmişdir. Respublikamızda investisiya fəaliyyətinin təşviqi məqsədilə son illərdə bir sıra dövlət proqramları və strateji sənədlər qəbul edilmişdir. Azərbaycan Respublikasının regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində regionlarda infrastrukturun yaxşılaşdırılması, biznes mühitinin inkişafı və investisiya cəlbediciliyinin artırılması istiqamətində mühüm tədbirlər həyata keçirilmişdir [6]. Bununla yanaşı, Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritələri investisiya mühitinin yaxşılaşdırılması, qeyri-neft sektorunun inkişafı və sahibkarlığın dəstəklənməsi baxımından kompleks yanaşmanı özündə ehtiva edir [7]. Eyni zamanda sənaye parklarının və xüsusi iqtisadi zonaların yaradılması, investisiya təşviqi sənədlərinin tətbiqi, vergi və gömrük güzəştlərinin verilməsi kimi alətlər vasitəsilə dövlət investisiya fəaliyyətinin stimullaşdırılmasına yönəlmiş məqsədyönlü siyasət həyata keçirir. Bu tədbirlər nəticəsində qeyri-neft sektorunda müəyyən irəliləyişlər müşahidə olunsa da, mövcud potensialın tam reallaşdırılması üçün əlavə institusional və struktur islahatlara ehtiyac qalmaqdadır.

Əsas hissə. Azərbaycan iqtisadiyyatında investisiya fəaliyyətinin təhlili göstərir ki, ölkəyə yatırılan ümumi investisiyaların həcmi uzun müddət ərzində yüksək səviyyədə olmuşdur və bu, əsasən iri enerji layihələrinin həyata keçirilməsi ilə bağlıdır. Xüsusilə neft-qaz sektorunda həyata keçirilən layihələr (hasilatın pay bölgüsü sazişləri çərçivəsində reallaşdırılan investisiyalar) ölkəyə iri həcmdə xarici kapital axınını təmin etmişdir. Bunun nəticəsində Azərbaycan regionda ən çox xarici investisiya cəlb edən ölkələrdən birinə çevrilmişdir. Diaqram 1-də Azərbaycan iqtisadiyyatına yönəldilən xarici və daxili investisiyalar əks olunmuşdur. Diaqramdan aydın olur ki, son on ildə ən çox 2016-cı ildə ölkəmizə xarici investisiya cəlb olunmuşdur. 2016-cı ildə 16.2 milyard manat investisiya qoyuluşu edilmişdir ki, bu da həmin ildə ümumi investisiya qoyuluşlarının 71.4%-ni təşkil etmişdir. Bu, 2015-ci ilin müvafiq göstəricisi ilə müqayisədə 47.4% artım deməkdir. 2023-cü ildə ümumi investisiya fəallığı baxımından son on ildə ən yüksək göstərici qeydə alınmışdır. 2023-cü ildə ölkəmizə 32.1 milyard manat investisiya qoyuluşu edilmişdir ki, bunun da 45.7%-i xarici investorların payına düşmüşdür. 2023-cü ildə xarici investorların fəallığı 2015-ci ilin müvafiq göstəricisi ilə müqayisədə 9.5% azalmışdır. 2023-cü il daxili investisiya qoyuluşları baxımından da ən məhsuldar il hesab olunur. Belə ki, 2023-cü ildə daxili investisiya qoyuluşlarının həcmi 17.4 milyard manat olmuşdur. Ümumi investisiya fəallığı baxımından ən qeyri-məhsuldar dövr 2015-ci ilə təsadüf edir. 2015-ci ildə respublikamıza 20057.4 min manat investisiya qoyulmuşdur ki, bunun da 54.8% xarici investisiyaların 45.2%-i isə daxili investisiyaların

payına düşmüşdür. 2015-2018, 2021 və 2022-ci illərdə xarici investisiyalar daxili investisiya qoyuluşlarını üstələmişdir.




**Diaqram 1. Azərbaycan iqtisadiyyatına yönəldilən xarici və daxili investisiyalar, milyon manatla**

Mənbə: "Azərbaycanda tikinti" Statistik məcmuə / 2024 göstəriciləri əsasında müəllif tərəfindən tərtib edilmişdir [8].

Xarici investisiya fəaliyyətində ən aşağı göstərici 2013-cü ildə qeydə alınmışdır. Belə ki, həmin il 8269.3 min manat xarici investisiya qoyuluşu müşahidə olunmuşdur ki, bu da daxili investisiyalardan 22.8% az olmuşdur və ümumi investisiyaların 38.6%-ni təşkil etmişdir. Son illərdə dövlət tərəfindən həyata keçirilən iqtisadi siyasət çərçivəsində qeyri-neft sektorunun inkişafına yönəlmiş tədbirlər nəticəsində bu sahəyə investisiya axınlarında artım müşahidə olunmaqdadır. Sənaye parklarının yaradılması, kənd təsərrüfatının subsidiyalaşdırılması, logistika və nəqliyyat infrastrukturunun inkişafı, həmçinin vergi və gömrük güzəştləri investisiya cəlbində mühüm rol oynayır. İnvestisiya təviqi sənəqlərinin dövriyyəyə buraxılması da bu istiqamətdə önəmli addımlardan biri olmuşdur [9, s.110]. Bununla yanaşı, regionların sosial-iqtisadi inkişaf proqramları çərçivəsində bölgələrə yönələn investisiyaların həcmi də artmışdır.

Diaqram 2-də Azərbaycanda neft-qaz və qeyri-neft sektorları üzrə əsas kapitala investisiyalar göstərilmişdir. Diaqrama nəzər saldıqda müşahidə edirik ki, neft-qaz sektoru üzrə əsas kapitala yönəldilən investisiyalar, 2016-cı il istisna olmaqla 2013-2023-cü illər dövründə qeyri neft-qaz sektoru üzrə əsas kapitala investisiyalar ilə müqayisədə daim az olmuşdur. 2016-cı ildə neft-qaz sektoru üzrə əsas kapitala yönəldilən investisiyalar həcmində ən yüksək göstərici qeydə alınmışdır. Belə ki, 2016-cı ildə neft-qaz sektorunda əsas kapitala 8.5 milyard manat investisiya qoyuluşu edilmişdir ki, bu da qeyri neft-qaz sektoru üzrə müvafiq göstəricidən 1.5 milyard manat çox olmuşdur. Qeyri neft-qaz sektoru üzrə ən yüksək göstərici 15 milyard manatla 2023-cü ildə qeydə alınmışdır. Bu göstərici 2016-cı ildəki ən aşağı göstəricidən 2.1 dəfə, 2023-cü ildə neft-qaz sektoruna yönəldilən investisiyalardan isə 2.4 dəfə çox olmuşdur. Sənayedə əsas kapitala yönəldilən xarici investisiyaların bir hissəsini emal sənayesinə yönəldilən investisiyalar təşkil edir. Diaqram 3-də Azərbaycanın emal sənayesində əsas kapitala yönəldilən xarici investisiyalar göstərilmişdir. Diaqramdan aydın olur ki, Azərbaycanın emal sənayesinə yönəldilən xarici investisiyalar ümumi investisiyalarda çox cüzi paya malikdir. 2016 və 2023-cü illərdə respublikamızın emal sənayesinə ümumi investisiya qoyuluşları müvafiq olaraq 424.3 milyon manat və 916.8 milyon manat olmuşdursa da xarici investisiya qoyuluşu olmamışdır. Emal sənayesinə qoyulan investisiyaların ən yüksək göstəricisi 2020-ci ildə qeydə alınmışdır. Belə ki, 2020-ci ildə emal sənayesində əsas ka-

pitala ümumilikdə 2610.5 milyon manat investisiya qoyulmuşdur ki, bu da 2019-cu illə müqayisədə 5.5% azdır.




**Diaqram 2. Azərbaycanda neft-qaz və qeyri-neft sektorları üzrə əsas kapitala investisiyalar, milyon manatla**

Mənbə: "Azərbaycanda tikinti" Statistik məcmuə / 2024 göstəriciləri əsasında müəllif tərəfindən tərtib edilmişdir [8].

Lakin 2019-cu ildə emal sənayesində əsas kapitala qoyulan xarici investisiyaların həcmi 2020-ci ilin müvafiq göstəricisindən 40 dəfə çoxdur. Belə ki, 2020-ci ildə xarici investisiyaların ümumi investisiyalarda çəkisi 0.76% olmasına müqabil, 2019-cu ildə bu göstərici 32.4% olmuşdur.




**Diaqram 3 Azərbaycanın emal sənayesində əsas kapitala yönəldilən xarici investisiyalar, milyon manatla**

Mənbə: "Azərbaycanda tikinti" Statistik məcmuə / 2024 göstəriciləri əsasında müəllif tərəfindən tərtib edilmişdir [8].

Qrafik 1-də 2013-2023-cü illərdə Azərbaycanda əsas kapitala ən çox investisiya qoymuş 10 ölkənin investisiya fəallığı təsvir edilmişdir. Qrafikə nəzər salsaq aydın olar ki, Birləşmiş Krallıq son on ildə ölkəmizə ən çox investisiya qoyuluşu edən ölkə olmaqla bərabər son illərdə investisiya fəallığında azalma müşahidə olunur. Belə ki, 2016-cı ildə 2.48 milyard manat sərmayə qoyuluşu edən britanyalılar, 2023-cü ildə bu məbləğin yarısı qədər (1.24 milyard manat) investisiya qoyuluşu etmişlər. Bu göstərici 2022-ci ilin müvafiq göstəricisindən 15.25% çox olsa da Birləşmiş Krallığın son illərdə ölkəmizdə əsas kapitala yönləndirdiyi ən aşağı investisiya

qoyuluşlarından biridir. Türkiyə Cümhuriyyəti Birləşmiş Krallıqdan sonra ölkəmizdə investisiya fəaliyyəti ilə məşğul olan ən fəal ölkədir. 2013-2016-cı illərdə əsas kapitala yönəldilən investisiyaların həcmində artım tempi görülürdüsə, 2016-2022-ci illərdə azalan tendensiya müşahidə olunmuşdur. Qardaş Türkiyənin də investisiya fəaliyyətində ən fəal iştirakı 2016-cı ilə təsadüf edir (1.24 milyard manat). Əsas kapitala investisiya qoyuluşlarında 2017-ci ildə əvvəlki illə müqayisədə 6.3%, 2018-ci ildə isə 50.3% kəskin azalma müşahidə olunmasına baxmayaraq, son illərdə kapital qoyuluşlarının həcmi azalmaqla bərabər daha stabil olmuşdur. Bütün bunlarla yanaşı, 2023-cü ildə əvvəlki illə müqayisədə 40.2% artım tempi müşahidə olunmuşdur. Xarici investisiyaların cəlb edilməsi baxımından Azərbaycan müəyyən üstünlüklərə malikdir. Bu üstünlüklərə əlverişli coğrafi mövqe, zəngin təbii resurslar, siyasi sabitlik və inkişaf etmiş enerji infrastrukturu daxildir. Eyni zamanda respublikamız beynəlxalq nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşir ki, bu da tranzit potensialını artırır və logistika sahəsinə investisiyaların cəlb edilməsinə şərait yaradır. Onu da qeyd etməliyik ki, post-konflik ərazilərimizdən keçməsi nəzərdə tutulan Zəngəzur dəhlizinin açılması ölkəmizə xarici investorların marağına daha da artıracaqdır [10, s.193].




**Qrafik 1. 2013-2023-cü illərdə Azərbaycanda əsas kapitala ən çox investisiya qoymuş 10 ölkənin investisiya fəallığı, min manatla**

Mənbə: "Azərbaycanda tikinti" Statistik məcmuə / 2024 göstəriciləri əsasında müəllif tərəfindən tərtib edilmişdir [8].

Bununla belə, xarici investisiyaların cəlbi sahəsində bir sıra problemlər mövcuddur. İlk növbədə, iqtisadiyyatın yüksək dərəcədə neft sektorundan asılılığı investorların diversifikasiya baxımından marağını məhdudlaşdırır. İkinci mühüm problem institusional mühitlə bağlıdır. Baxmayaraq ki, son illərdə islahatlar həyata keçirilmişdir, bəzi hallarda hüquqi mühitin qeyri-müəyyənliyi, məhkəmə sisteminin effektivliyi və müqavilələrin icrasına dair risklər investorların qərarlarına mənfi təsir göstərə bilər. Digər problem isə maliyyə bazarlarının yetərincə inkişaf etməməsi ilə bağlıdır. Yerli kapital bazarlarının dərinliyinin aşağı olması, maliyyə alətlərinin məhdudluğu və kredit resurslarının yüksək faizlərlə təqdim olunması investisiya fəaliyyətinin genişlənməsini məhdudlaşdırır. Bundan əlavə, insan kapitalının keyfiyyəti və əmək bazarının tələblərə tam uyğunlaşmaması da xarici investorlar üçün əlavə risk amili kimi çıxış edir. İnfrastruktur sahəsində müəyyən nailiyyətlər əldə edilsə də, bəzi regionlarda infrastruktur təminatının yetərli səviyyədə olmaması investisiyaların bölgələr üzrə balanslı paylanmasına mane olur. Eyni zamanda innovasiya və texnologiya sahəsində fəaliyyətin zəif inkişafı yüksək texnologiyalı investisiyaların cəlb edilməsini çətinləşdirir. Beynəlxalq təcrübə

göstərir ki, investisiya mühitinin yaxşılaşdırılması üçün kompleks yanaşma tələb olunur. Bu çərçivədə hüquqi və institusional islahatların dərinləşdirilməsi, şəffaflığın artırılması, korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi və biznes mühitinin liberallaşdırılması mühüm əhəmiyyət kəsb edir. Bundan əlavə, fiskal təşviqlər, xüsusi iqtisadi zonaların yaradılması və investisiya təşviqi mexanizmlərinin tətbiqi xarici investorların cəlb edilməsində effektiv vasitə kimi çıxış edə bilər.

## Nəticə

Aparılan kompleks təhlil göstərir ki, Azərbaycan iqtisadiyyatında investisiya fəaliyyəti son illər ərzində müsbət dinamikaya malik olmuş, ümumi investisiya axınlarının həcmi və iqtisadi artıma təsiri baxımından əhəmiyyətli nəticələr əldə edilmişdir. Bununla belə, investisiya fəaliyyətinin struktur xüsusiyyətləri və xarici investisiyaların cəlb edilməsi sahəsində mövcud sistemli problemlər ölkədə uzunmüddətli və dayanıqlı iqtisadi inkişafın təmin olunmasını müəyyən dərəcədə məhdudlaşdırır. İnvestisiyaların sektoral baxımdan qeyri-bərabər bölgüsü, yəni onların böyük hissəsinin hələ də neft-qaz sektorunda cəmləşməsi iqtisadiyyatın şaxələndirilməsi prosesini ləngidir və xarici şoklara qarşı həssaslığı artırır. Eyni zamanda institusional mühitin bəzi komponentlərinin, o cümlədən hüquqi təminat mexanizmlərinin effektivliyinin, müqavilələrin icra səviyyəsinin və məhkəmə sisteminin operativliyinin tam arzuolunan səviyyədə olmaması xarici investorların risk qiymətləndirməsinə mənfi təsir göstərir. Mövcud problemlərin aradan qaldırılması və investisiya mühitinin daha da təkmilləşdirilməsi məqsədilə bir sıra kompleks və sistemli tədbirlərin həyata keçirilməsi zəruri hesab olunur. İlk növbədə, iqtisadiyyatın sektoral diversifikasiyasının dərinləşdirilməsi üçün qeyri-neft sektorunda, xüsusilə emal sənayesi, kənd təsərrüfatı, rəqəmsal iqtisadiyyat və yüksək texnologiyalar sahəsində məqsədli dövlət proqramlarının genişləndirilməsi vacibdir. Bu çərçivədə sənaye parklarının fəaliyyətinin effektivliyinin artırılması, onların rezidentləri üçün vergi və gömrük güzəştlərinin optimallaşdırılması xüsusi əhəmiyyət kəsb edir. Uzunmüddətli sabit fiskal rejimin təmin edilməsi xarici investorların marağını əhəmiyyətli dərəcədə artıra bilər. Hüquqi bazanın daha da təkmilləşdirilməsi, investor hüquqlarının qorunması mexanizmlərinin gücləndirilməsi, arbitraj və kommersiya mübahisələrinin həlli sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması və şəffaflığın artırılması investisiya mühitinin keyfiyyətini yüksəldəcək əsas amillərdəndir. Eyni zamanda korrupsiyaya qarşı mübarizə tədbirlərinin gücləndirilməsi və dövlət idarəçiliyində rəqəmsallaşmanın genişləndirilməsi inzibati maneələrin azaldılmasına və biznes mühitinin liberallaşdırılmasına xidmət edəcəkdir. Maliyyə bazarlarının inkişafı istiqamətində isə kapital bazarlarının dərinləşdirilməsi, qiymətli kağızlar bazarının genişləndirilməsi, vençur maliyyələşmə mexanizmlərinin tətbiqi və startap ekosisteminin dəstəklənməsi mühüm əhəmiyyət daşıyır. Bununla yanaşı, bank sektorunda kredit resurslarının daha əlçatan və münasib şərtlərlə təqdim olunması üçün monetar siyasət alətlərinin optimallaşdırılması investisiya aktivliyinin artmasına təkan verə bilər. İnfrastruktur təminatının regionlar üzrə balanslı inkişafının təmin edilməsi, nəqliyyat-logistika şəbəkələrinin daha da genişləndirilməsi investisiya cəlbediciliyinin artırılması baxımından vacib istiqamətlərdəndir. Eyni zamanda insan kapitalının inkişafı, təhsil sisteminin əmək bazarının tələblərinə uyğunlaşdırılması və peşəkar kadr hazırlığının gücləndirilməsi yüksək texnologiyalı və innovativ investisiyaların cəlb edilməsində mühüm rol oynayacaqdır. Beynəlxalq təcrübəyə əsaslanaraq deyə bilərik ki, investisiya təşviqi siyasətinin daha məqsədyönlü və selektiv xarakter alması üçün prioritet sektorların müəyyənləşdirilməsi və bu sahələr üzrə hədəfli təşviq mexanizmlərinin tətbiqi zəruridir. Bunun köməyi ilə xarici investisiyalar texnologiya transferini sürətləndirə və Azərbaycan iqtisadiyyatının rəqabət qabiliyyətinin yüksəldilməsinə xidmət edə bilər. Qeyd olunan kompleks tədbirlərin ardıcıl və koordinasiyalı şəkildə həyata keçirilməsi investisiya fəaliyyətinin effektivliyinin artıracaq və ölkənin uzunmüddətli dayanıqlı inkişaf modelinə keçidinə mühüm töhfə verəcəkdir.

## ƏDƏBİYYAT SİYAHISI

1. Burhanzadeh, J. Approaches of economic schools regarding investment activity. // Science in the modern world conference, Toronto, 2025. – pp. 485-492.

2. World Bank. World Development Indicators 2024. Washington, DC: World Bank Publications, 2024. URL: https://datatopics.worldbank.org/world-development-indicators/
3. UNCTAD (United Nations Conference on Trade and Development). World Investment Report 2023: Investing in Sustainable Energy for All. Geneva: United Nations Publications, 2023. URL: https://investmentpolicy.unctad.org/publications/1283/world-investment-report-2023-investing-in-sustainable-energy-for-all
4. OECD (İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı). Foreign Direct Investment for Development: Maximising Benefits, Minimising Costs. Paris: OECD nəşrləri, 2002. p. 228. URL: https://www.oecd.org/content/dam/oecd/en/publications/reports/2002/09/foreign-direct-investment-for-development_g1gh2cf5/9789264199286-en.pdf
5. Azərbaycan Energetika Nazirliyi. Əsrin Müqaviləsi. Energetika Nazirliyinin rəsmi saytı. [Elektron resurs]: https://minenergy.gov.az/az/neft/esrin-muqavilesi
6. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər) təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı (11 fevral 2004-cü il, № 24) // URL: https://e-qanun.az/framework/4797
7. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmişdir // Azərbaycan Respublikasının Qanunvericilik Toplusu. – Bakı, 2016. URL: https://e-qanun.az/framework/57112
8. Nuraliyeva Rahima, Mamedova Gulnara, Lala Ismailova (2025) Econometric assessmrnt of the impact of volume of radon emissions per capita in the republic of Azerbaijan. RT&A, Special Issue № 6 (81), Part-1,Volume 19, https://doi.org/10.24412/1932-2321-2024-681-430-436
9. Gulaliyev, G.M., Yuzbashiyeva, G.Z., Mamedova, G.V., Abasova, S.T., Salahov, F.R., Askerov, R.R. (2020b), Consumer surplus changing in the transition from state natural monopoly to the competitive market in the electricity sector in the developing countries: Azerbaijan case. International Journal of Energy Economics and Policy, 10(2), 2020b, pp.265-275, [Online]. https://www.econjournals.com/index.php/ijee p/article/view/8909 (Accessed Date: October 28, 2024).
10. Azərbaycanda tikinti Statistik məcmuə / 2024 // - Bakı: Narıncı, -2024. -256 s.
11. Burhanzadə, C. Azərbaycanın post-konflikt ərazilərinə xarici investisiyaların cəlbediciliyini artırmaq üçün fiskal təşviq mexanizmləri. // İqtisadi Artım və İctimai Rifah, 2025, №3. – s. 107-114.
12. Burhanzadə, C. Çinin "Kəmər və yol təşəbbüsü" layihəsində Zəngəzur dəhlizinin potensial imkanları. // Beynəlxalq Nəqliyyat-logistika dəhlizləri, 2023. – s. 191-199.

## ANALYSIS OF INVESTMENT ACTIVITY IN THE ECONOMY OF AZERBAIJAN AND PROBLEMS OF ATTRACTING FOREIGN INVESTMENT

***Javanshir Atesh BURHANZADEH***
*Junior Researcher, "Post-Conflict Territories Restoration" Scientific Center*
*Institute of Economics of the Ministry of Science and Education of the Republic of Azerbaijan*
*E-mail: j.burhanzada@economy.science.az*
*cavanshirburhanzadeh@gmail.com*

**Abstract.** The main objective of this article is to conduct a comprehensive analysis of the current state and dynamic development trends of investment activity in the economy of Azerbaijan, as well as to identify the key challenges in attracting foreign investment. Within the framework of the study, comparative analysis, statistical analysis, a systematic approach, and generalization methods have been employed. The analysis and assessments are primarily based on data from the annual reports of the State Statistics Committee. The findings indicate that investment flows in the country have historically been concentrated predominantly in the energy sector. Although the share of investments directed to the non-oil sector has shown an upward trend in recent years, it has not yet reached a sufficient level in terms of ensuring economic diversification. At the same time, the quality of the institutional environment, the effectiveness of the legal framework, infrastructure provision,

and regional development disparities emerge as key factors influencing the decisions of foreign investors. Based on the results of the study, it has been determined that improving the investment environment requires deepening institutional reforms, developing financial markets, and expanding targeted incentive mechanisms in the non-oil sector. The practical significance of the article lies in the fact that the proposed recommendations can be utilized in shaping state investment policy and optimizing mechanisms for attracting foreign investment. The scientific novelty of the study is associated with the systematic structural analysis of investment activity and the substantiation of macroeconomic incentive instruments adapted to the Azerbaijani context. Furthermore, the research contributes to the existing academic literature and can serve as a theoretical and methodological basis for future studies in this field.

**Keywords:** investment activity, foreign investment, economic development, non-oil sector, manufacturing industry, institutional environment, macroeconomic incentives.

## АНАЛИЗ ИНВЕСТИЦИОННОЙ ДЕЯТЕЛЬНОСТИ В ЭКОНОМИКЕ АЗЕРБАЙДЖАНА И ПРОБЛЕМЫ ПРИВЛЕЧЕНИЯ ИНОСТРАННЫХ ИНВЕСТИЦИЙ

**Джаваншир Атеш БУРХАНЗАДЕ**
*Младший научный сотрудник Научного центра*
*«Восстановление постконфликтных территорий»*
*Института экономики Министерства науки и образования Азербайджанской Республики*
*E-mail: j.burhanzada@economy.science.az*
*cavanshirburhanzadeh@gmail.com*

**Аннотация.** Основной целью данной статьи является комплексный анализ современного состояния и динамических тенденций развития инвестиционной деятельности в экономике Азербайджана, а также выявление ключевых проблем в сфере привлечения иностранных инвестиций. В рамках исследования использованы методы сравнительного анализа, статистического анализа, системного подхода и обобщения. Аналитические оценки в основном базируются на данных годовых отчетов Государственного комитета статистики. Проведённый анализ показывает, что инвестиционные потоки в стране на протяжении длительного времени преимущественно концентрировались в энергетическом секторе. Несмотря на то, что доля инвестиций, направляемых в ненефтяной сектор, в последние годы демонстрирует положительную динамику, она всё ещё не достигла достаточного уровня с точки зрения диверсификации экономики. В то же время качество институциональной среды, эффективность правовой базы, уровень развития инфраструктуры и региональные диспропорции выступают в качестве ключевых факторов, влияющих на решения иностранных инвесторов. По результатам исследования установлено, что для совершенствования инвестиционного климата необходимо углубление институциональных реформ, развитие финансовых рынков, а также расширение целевых механизмов стимулирования в ненефтяном секторе. Практическая значимость статьи заключается в том, что предложенные рекомендации могут быть использованы при формировании государственной инвестиционной политики и оптимизации механизмов привлечения иностранных инвестиций. Научная новизна исследования заключается в системном проведении структурного анализа инвестиционной деятельности и обосновании макроэкономических стимулирующих инструментов, адаптированных к условиям Азербайджана. Наряду с этим, исследование вносит вклад в существующую научную литературу и может служить теоретико-методологической основой для дальнейших исследований в данной области.

**Ключевые слова:** инвестиционная деятельность, иностранные инвестиции, экономическое развитие, ненефтяной сектор, обрабатывающая промышленность, институциональная среда, макроэкономические стимулы.